# Bir sevən qadının həyat hekayəsi

Novella

sini cənab Sasabedən xahiş etdi, o da buna böyük həvəslə razılıq verdi. Sodzi qayıdanda Kasusironu da özüylə aparacağını və hansı gün yola çıxacaqlarını da ona söylədi. Bundan məmnun olan Kasusiro qalan əkin sahələrini də satıb əldə etdiyi pula kifayət qədər ipək alıb Sasabenin gedəcəyi günü gözlədi.

Kasusironun arvadı kəndin ən gözəl qadınıydı, bir tərəfə çıxanda ona gizlicə göz yetirənlər çox olurdu və o, xoş xasiyyətiylə də seçilirdi. Ərinin paytaxta getmək qərarından sonra pərişan olan Miyaqi hər vasitəylə onu bu fikrindən daşındırmağa çalışdı. Amma bu səfər Kasusironun çoxdankı niyyəti olduğuna görə Miyaqi qarşıda onu gözləyən ayrılıqla barışmalı olub əinin yoluna hazırlıq görməyə başladı. Və vaxt yetdi, sonuncu bütün gecəni yatmayıb öz aralarında olan söhbətlə səhəri açdılar. "Bir arxası, dəstəyi, köməyi olmayan qadın ruhən çaşıb çöllərdə və meşələrdə gəzməyə, dolaşmağa məhkumdu. Sənsiz nə təhər acı günlər yaşayacağımı fikirləş. Gecə də, gündüz də məni xatırla və tezliklə qayıt. Məsəl də var: salamat qalsaq, görüşəcəyik. Amma belə bir zamanda sabah nə olacağını heç kim deyə bilməz. Qoy, sənin bu sərt ürəyində mənə qarşı rəhm əskik olmasın". Arvadını sakitləşdirməyə çalışan Kasusiro deyirdi: "Yad yerdə insan dalğaların qovub istədiyi səmtə apardığı çöp kimi bir şeydi. Nəyə görə mən orda uzun müddət qalmalıyam? Mən payızda qayıdacağam, Kudzunun tel kimi uzun yarpaqları torpağa yatanda. Heç ruhdan düşmə, məni gözlə". Və dan yeri qızaranda şərqdən paytaxta tərəf yola çıxdı.

Həmin yay, Kyotokunun idarəçiliyi illərində canişin Siqeudzi Uesuqinin müşavirləriylə dava saldı və Uesuqinin döyüşçüləri canişinin sarayını büsbütün himinə qədər yandırdılar. Canişin Sosyudan olan tərəfdarlarının yanında özünə sığınacaq tapdı. Bundan sonra paytaxtdan şərqə tərəf getdikcə daha çox artan hərc-mərclik və iğtişaşlar başladı, aləm bir-birinə qarışdı, hər kəs yalnız öz xilası haqqında düşünürdü, qocalar meşələrə qaçırdı, amma cavanları qol gücünə sorla döyüş dəstələrinə alırdılar. Kəndlərdən artıq yanıb kül olanı da vardı, düşmənlərə layiqli cavab verməyə hazır olanı da - bu kəndlərdə qadınları və uşaqları gizli yerlərdə saxlayırdılar. Hamı bu qarışıqlıqda başını itirmişdi, fəryad, inilti səsi, ah-vay göylərə yüksəlirdi.

Kasusironun arvadı da bir yana qaçmaq istəsə də ərinin payızda qayıtmaq vədini xatırlayıb öz evində qaldı və beləcə təlaş və təşviş içində günləri saymaqla yaşamağa davam etdi. Payız girdi, ağaclarda yarpaqlar saraldı, amma ərindən bir səs, bir soraq çıxmadı. Görünür dəyişən dünya kimi insanların da etibarsız olduğuna əmin olub şeirlər də yazdı:

**Mənim kədərim haqda bu xəbərləri,**
**Sevimli ərimə kimlər aparsın?**
**Bəlkə, sən açasan, ey gecə quşu**
**Bürkü, boğanaqda "görüş qapısın"**
**Ona söyləyəsən payız da ötdü...**

Lakin arada onları ayıran sıra-sıra dağlar, dərələr və vadilər vardı, Kasusironun indi tənha qalan bu qadınının dualarını dinləmsi mümkünsüzdü. İğtişaşlar isə davam edirdi və insanlar daha çox təşviş içində vurnuxurdu. Hərdən Miyaqini görməyə gələn tanışlarını da bu qadının gözəlliyi yoldan çıxarır, ehtiras oyadan sözlərlə zavallını azdırmaq istəyirdilər. Amma bu qadın öz ləyaqətini qoruyub hiddət və qəzəblə belə adamları rədd edirdi, axırda da bir kimsənin gözünə görünməməyə qərar verdi. O, tənha yaşayırdı, evdə olan ərzaq və azuqə ehtiyatı da tükəndi. Yeni ili də qüssə-kədər içində qarşıladı.

Qiyam və döyüşlərin sonu görünmürdü. Suneyorihələ payızkən ali baş komandan - Şərqi Simotsukenin canişini və Mino xanədanının başçısının əmriylə öz qəbiləsindən olan Sanetane Tibayla birlikdə Siqeudziyə qarşı hərəkətə keçdi. Amma kamakurlu canişin qətiyyətlə müdafiə olunurdu. Talan və qarətlə başgirləyənlər güclü mühafizə olunan düşərgələr salır və ətraf əhalini çapıb talayır, yaşayış məntəqələrinə od vurub yandırırdılar. Kantonun bütün səkkiz xanədanının sakit bir dəlmə-deşiyi belə qalmadı, insanlar qəddarlıq və amansızlığın cəngində ah-nalə çəkirdi.

Kasusiroya gəlincə, o, çox tez bir vaxtda əlində olan ipəyi paytaxtda satıb yaxçı gəlir əldə etdi, ona görə ki, o dövr paytaxt sakinləri təm-təraqlı yaşamağı çox sevirdilər. Kasusiro geri qayıtmağa hazırlaşanda bütün paytaxtSiqeudzinin sarayının yandırılmasından, Uesuqinin döyüşçülərinin kamakurlu canişinin axtarışında olmasından və bütün şərqin iğtişaş tüğyan edən odun-alovun içində qovrulmasından danışırdı. Hətta sən şahidi olduğun hər hansı bir hadisə haqqında yayılan şayiədə belə həmişə ağılagəlməz uydurma fikirlər olur. Xüsusən də daha çox uydurma fikirlər o şayiələrdə olur ki, vaqiələr qatqat ağ buludların altında görünməz olan ölkədə baş verir. Bununla belə rahatlıq tapa bilməyən Kasusiro geri dönmək üçün avqustun əvvəlində paytaxtdan çıxıb şərqə tərəf yola düşdü. Amma ona mənzilbaşına çatmaq qismət olmadı. Kiso dağlarındakı Misaka təpəliklərində alatoranda soyğunçular onu haxlayıb üst-başını qarət etdilər. Sonra o, xəbər tutdu ki, şərqdə hər yerdə gözətçi məntəqələri qoyulub və yolçuları nə o tərəfə, nə də bu tərəfə buraxırlar, hətta məktub göndərmək də olmur. "Çox güman ki, mənim də evim yanıb, arvadım da ölüb, opa gedib çıxsam belə doğma olan heç kimi görə bilməyəcəm. Ancaq iblis kimi qəddar, amansız yadlar məni qarşılayacaq" - deyə Kasusiro düşündü. Və o, paytaxta qayıtmalı oldu. Omi mahalına çathaçatda hiss etdi ki, halı yaxşı deyil. Onu titrətmə tutdu, qızdırması olduğunu yalnız indi anladı.

Bu mahalın Musa kəndində Kaxey Kodama adında bir zəngin vardı. O, Sasabenin arvadının qohumlarından sayılırdı. Kasusiro ondan daldalanmaq üçün bir yer istədi. Kodama onu qəbul edib qayğısına qaldı, təbib çağırıb dava-dərman aldı. Tezliklə Kasusiro yaxşılaşdı və ev sahibinə ona göstədiyi xeyirxahlığa görə təşəkkür etdi. Ancaq o, hələ də özünü heysiz hiss edir və yola çıxmağa cəsarət etmirdi. Kasusiro istədi-istəmədi bütün qışı ta yaza qədər Kodamanın evində qalmalı oldu. Günlər, həftələr ötdükcə bu kənddə dostlarının sayı da artdı: Kodamadan belə hər kəs bu qərib adama iltifatla yanaşırdı, ona görə ki, o, təmizqəlbli və gülərüz idi.

Bir gün paytaxta yollanan Kasusiro Sasabedən hal-əhval tutandan sonra yenidən Omiyə, Kodamagilə qayıtdı. Qayət, röyalarda olduğu kimi yeddi il keçdi.

**(ardı növbəti şənbə sayımızda)**

**Çevirəni:**
***Şükür ŞƏNOL***




...əzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat pro...
"AZƏRBAYCAN" nəşriyya...
**Telefon: 538-05-50, 538-51-31. 534-55-...**
**adaletqezeti@ra...**
**adaletqezeti@mail.ru, ada...**
**Qəzetdə "Olaylar" və APA İA-nın məlu...**